May 2021

Azərbaycan Respublikasının qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi

Hazırkı buraxılışda aşağıdakılar haqqında məlumatı diqqətinizə çatdırırıq:

- Əmək Məcəlləsində edilmiş dəyişikliklər
- Karantin rejimində edilmiş dəyişikliklər

# ► Əmək Məcəlləsində edilmiş dəyişikliklər

02 aprel 2021-ci il Azərbaycan Respublikası Əmək Məcəlləsində (bundan sonra "**Məcəllə**" adlandırılacaq) dəyişikliklərin edilməsi haqqında Qanun (bundan sonra "**Dəyişiklik**" adlandırılacaq) qəbul edilib və 08 may 2021-ci il tarixində qüvvəyə minib.
Dəyişiklik mülki hüquqi müqavilələrlə rəsmiləşdirilən münasibətlərin hansı hallarda tərəflər arasında yaranan əmək münasibətləri hesab edildiyini və belə halların ən azından biri aşkar olduğu gündən yazılı əmək müqaviləsinin bağlanması tələbini müəyyən edib. Bu hallardan bəzilərini qısaca aşağıda təqdim edirik:

- müqavilənin məzmunu əmək müqaviləsində göstərilməli olan əsas şərtlər və məlumatlardan ibarət olduqda, forması isə əmək müqaviləsinin nümunəvi formasına uyğun tərtib edildikdə;

- tərəflər arasında münasibətlərin rəsmiləşdirilməsi üçün əmək kitabçası təqdim edildikdə;

- tərəflər arasında münasibətlər işəgötürənin əsas fəaliyyət sahəsinə aid işlərin (xidmətlərin) yerinə yetirilməsi ilə bağlı yarandıqda;

- yerinə yetirilən işə (xidmətə) görə ödənilən haqqın tərkibi aylıq tarif (vəzifə) maaşından, əlavədən və mükafatdan ibarət olduqda və s.

Dəyişiklik işəgötürmə üzrə iş bazarında hazırda mövcud olan təcrübəyə ciddi təsir edəcəkdir. Bu baxımdan düşünürük ki, müəssisələr bağladıqları mülki-hüquqi müqavilələri yenidən nəzərdən keçirməli və Dəyişiklik ilə müəyyən olunan hallar aşkar olunduqda tələb olunan addımları atmalıdırlar.

EY

# ► Karantin rejimində edilmiş dəyişikliklər

***Karantin rejiminin müddəti uzadılsa da, bəzi məhdudiyyətlər aradan qaldırılıb***

26 may 2021-ci il tarixində Azərbaycan Respublikasının Nazirlər Kabineti xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı qərar (bundan sonra "**Qərar**" adlandırılacaq) qəbul edib.

Qərara əsasən ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 2021-ci il 1 avqust saat 06:00-dək uzadılıb.

Eyni zamanda, **31 may saat 06:00-dan**:

- Açıq havadakı ictimai yerlərdə maskadan istifadə edilməsi tələbi ləğv edilir;
- Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti bərpa edilir;
- Şəhər və rayonlardan sərnişin daşımaları bərpa edilir.

**10 iyun saat 00:00-dan** isə aşağıdakı iş və xidmət sahələrinin fəaliyyəti bərpa edilir:

- Dini ibadət yerləri;
- İri ticarət mərkəzləri (uşaq və digər əyləncə mərkəzlərinin, kinoteatrların fəaliyyəti istisna olmaqla).
- İdman və sağlamlıq-bərpa obyektləri (Bu yumuşaltmadan yalnız COVID-19 pasportu və ya COVID-19-a qarşı immunitet sertifikatı olan şəxslər istifadə edə bilərlər);
- Çimərliklər və onların ərazisində yerləşən hovuzlar, su attraksionları və idman oyunu yerləri.

***COVID-19 pasportu və COVID-19-a qarşı immunitet sertifikatı***

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin rəsmi internet səhifəsində E-xidmət kimi və ya "E-Təbib" mobil tətbiqi vasitəsi ilə əldə edilməsi mümkün olan COVID-19 pasportunun iki növü nəzərdə tutulub: "COVID-19 vaksin sertifikatı" və "COVID-19 immunitet sertifikatı".

"COVID-19 vaksin sertifikatı" COVID-19 xəstəliyi əleyhinə vaksinasiya olunanlara (hər iki dozada), "COVID-19 immunitet sertifikatı" isə xəstəliyə yoluxub sağalmış şəxslərə verilir.

***İqtisadiyyatin müxtəlif sahələrinə koronavirus pandemiyasından irəli gələn yeni tələb***

Qərara əsasən 2021-ci il iyulun 1-dən etibarən müəyyən iş və xidmət sahələrində işçilərinin ən azı 80 faizinin belə pasporta və ya sertifikata malik olması tələb olunacaq.

Hal-hazırda yuxarıda qeyd olunmuş tələbin şamil olacaq iş və xidmət sahələrinin siyahısı və ya meyarları ictimayətə təqdim olunmayıb.

## Əlaqə üçün:

Əlaqə üçün Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik.

Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:

**Arzu Hacıyeva**
Partnyor, Vergi və hüquq xidmətləri

Tel: +994 (12) 490 7020
Email: arzu.hajiyeva@az.ey.com

**Səbinə Xəlilova**
Baş menecer, Vergi və hüquq xidmətləri

Tel: +994 (12) 490 7020
Email: sabina.khalilova@az.ey.com

**Hidayət Əzimov**
Hüquq xidmətlərinin rəhbəri, Vergi və hüquq xidmətləri

Tel: +994 (12) 490 7020
Email: hidayat.azimov@az.ey.com

Hazırkı nəşr diqqət ilə hazırlanmışdır, lakin ona daxil edilmiş məlumat zəruri olaraq qısa xülasə şəklində təqdim edilir və buna görə də ümumi xarakter daşıyır və ətraflı araşdırmanın və ya peşəkar rəyin əvəzi kimi nəzərdə tutulmamışdır. "EY" hazırkı nəşrə daxil edilmiş məlumata əsaslanaraq hərəkət etmiş və ya etməmiş hər hansı şəxsə dəyən ziyana görə heç bir məsuliyyəti üzərinə götürmür. Hər hansı xüsusi hal ilə bağlı olaraq istinad müvafiq məsləhətçiyə edilməlidir.

EY

Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti müştərilər, insanlar və bütün cəmiyyət üçün uzunmüddətli dəyərin yaradılması və kapital bazarlarına inamın artırılmasına töhfə verərək daha yaxşı iş dünyasını qurmağa çalışır.

EY şirkətinin dünyanın 150-dən çox ölkəsində müxtəlif sahələrdə çalışan komandaları informasiya və texnologiyanın istifadəsi ilə məlumatlara olan etibarı təmin edir və onların doğruluğunu təsdiqləyir, müştərilərin inkişafına, dəyişməsinə və uğurla fəaliyyət göstərməsinə kömək edir.

EY şirkətinin audit, konsaltinq, hüquq, strategiya, vergi və sövdələşmələr sahəsində çalısan mütəxəssisləri bu gün dünyanın üzləşdiyi mürəkkəb məsələlərə yeni cavablar tapmaq üçün düzgün suallar verirlər.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Global Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkətinin fərdi məlumatları necə toplaması və istifadə etməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

MDB şirkətləri ilə qarşılıqlı əməkdaşlıq aparan EY, onların öz işgüzar məqsədlərinə çatmasına kömək edir. Moskva, Yekaterinburq, Kazan, Krasnodar, Novosibirsk, Rostov-Don, Sankt-Peterburq, Tolyatti, Vladivostok, Almatı, Atırau, Nur-Sultan, Bakı, Kiyev, Minsk, Daşkənd, Tbilisi və digər şəhərlərdə yerləşən 19 MDB ofisində 5,500 mütəxəssis çalışır.

© 2021-ci il "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialı.

Bütün hüquqlar qorunur.

Əlaqə

| | |
|---|---|
| **Almatı**<br>+7 (727) 258 5960 | **Minsk**<br>+375 (17) 209 4535 |
| **Nur-Sultan**<br>+7 (7172) 58 0400 | **Moskva**<br>+7 (495) 755 9700 |
| **Bakı**<br>+994 (12) 490 7020 | **Sankt-Peterburg**<br>+7 (812) 703 7800 |
| **Kazan**<br>+7 (843) 567 3333 | **Daşkənd**<br>+998 (71) 140 6482 |
| **Kiyev**<br>+380 (44) 490 3000 | **Tbilisi**<br>+995 (32) 43 9375 |